Tarix və onun problemləri, №2 2010

SƏİDƏ ƏLİ QIZI
*Bakı Dövlət Universitetinin dosenti*

# ŞƏRQİN İSLAM MÜTƏFƏKKİRLƏRİ - ƏHMƏD BƏY AĞAOĞLU VƏ ŞEYX CƏMALƏDDİN ƏFQANİ

Şərq tarixinin yeni dövrü görkəmli islam mütəfəkkirləri yetirmişdir. Bunların içərisində Əhməd bəy Ağaoğlu və Şeyx Cəmaləddin Əfqani xüsusi yer tutur.

XX əsr Azərbaycanının milli-azadlıq hərəkatında və ictimai-siyasi fikir tarixində dərin iz qoymuş Əhməd bəy Ağaoğlunun islam dininə dərindən yiyələnməsində və görkəmli islamşünas alim kimi formalaşmasında Şeyx Cəmaləddin Əfqaninin böyük rolu olmuşdur. Əhməd bəy müxtəlif əsərlərində Cəmaləddin Əfqani haqqında bəhs edərkən özü bunu dəfələrlə etiraf etmiş, Şərq ölkələrində baş verən ictimai-siyasi hərəkatlara, müstəmləkəçilik zülmünə qarşı müsəlman xalqlarının azadlıq mübarizəsinə Əfqani ideyalarının güclü təsirini xüsusi vurğulamışdır.

Bəs, Avropalıların "Böyük bir müsəlman", "Müsəlman dünyasının mümtaz siması" adlandırdığı Cəmaləddin Əfqani kimdir?

Müsəlman dünyasının görkəmli mütəfəkkiri, islam filosofu, ictimai-siyasi xadimi, islam birliyi (ittihadi-islam) və islamın müasirləşməsi hərəkatının ideoloqu Şeyx Cəmaləddin Əfqani (1838-39 - 1897) XIX əsrdə həm Şərq ölkələrində, həm də Avropada kifayət qədər yaxşı tanınan və qəbul edilən böyük şəxsiyyətlərdən biridir. O, bütün həyatını müsəlman xalqlarının milli-ictimai oyanısı və milli-siyasi müstəqillik uğrunda mübarizəsinə həsr etmişdir və bu yolda ilk şəhidlərdən hesab olunur.

Cəmaləddin Əfqani Həmədan yaxınlığındakı Əsədabad kəndində anadan olmuşdur (5, s. 327). Əhməd bəy Ağaoğlunun verdiyi məlumata görə o, əslən Azərbaycan türküdür (3, s.141). Kabulda mədrəsə təhsili almış, bir müddət Hindistanda yaşayıb, burada Avropa mədəniyyəti ilə tanış olmuş, daha sonra Əfqanıstana, 1870-ci ildə isə İstanbula köçmüşdür. Burada Ali Maarif Şurasının, Elmlər Akademiyasının (Əncümən-i danişin) üzvü olur, bir müddət universitetdə mühazirələr oxuyur. İrəli sürdüyü fikirlərə görə Misirə sürgün olunur, lakin 1879-cu ildə ingilislər onu Misirdən çıxarırlar, o yenidən Hindistana qayıdır. Müstəmləkəçiliyə qarşı çıxdığına görə ingilislər tərəfindən həbs olunur. Həbsdən buraxılandan sonra bir çox dünya ölkələrini gəzərək, öz fəaliyyətini davam etdirir (3, s. 141). Onun fəaliyyətinin əsasında istibdada və müstəmləkəçiliyə qarşı barışmaz mübarizə dururdu. O, bütün müsəlman xalqlarını Osmanlı dövlətinin rəhbərliyi altında birləşməyə çağırırdı. Əfqani belə hesab edirdi ki, yalnız bu yolla əldə edilən islam birliyi imperializmə və müstəmləkəçiliyə qarşı uğurlu mübarizə apara bilər (3, s. 141-142).

Cəmaləddin Əfqani özünün "Milli vəhdət fəlsəfəsi və din birliyinin həqiqi mahiyyəti" adlı əsərində müsəlman xalqlarının milli soykökünə, dininə, mədəniyyətinə böyük əhəmiyyət verərək, bütövlükdə dünya xalqları üçün zəruri olan bir tezis irəli sürmüşdü: "Din birliyi olmasa, milli vəhdətin həqiqi mahiyyəti və həyat gücü ola bilməz" ( 5, s. 327).

Əfqani din xadimi olmasına baxmayaraq, Avropa mədəniyyətinin və dövlətçiliyinin mütərəqqi ənənələrinin Şərq ölkələrində, müsəlman xalqları arasında yayılmasına çalısır və özü şəxsən bunu təbliğ edirdi. O, bütün Şərq və Qərb ölkələrini qarşı-qarşı gəzərək, "islami oyanış" və "milli birlik" ideyalarını yayırdı. Onun gəzib fəaliyyət göstərdiyi ölkələrin və şəhərlərin sırasında Bombey, Kəlkətə, Heydərabad, Ciddə, Qahirə, İstanbul, Paris, London, Münxen, ABŞ, Peterburq, Moskva, Tehran və Bakı kimi şə-

hərlər olmuşdur. Əfqaninin qarşısına qoyduğu məqsəd islam dinini əvvəlki dəyərlərə, öz sözləri ilə desək, "səadəti-rövşanə" qaytarmaq, xurafatdan təmizləmək idi. Onun fikrincə, xurafat Avropa mədəniyyətinin və elminin Şərqə daxil olmasına və yayılmasına, həmçinin Şərq xalqlarının ona yiyələnməsinə mane olurdu.

Cəmaləddin Əfqaninin "İttihadi-islam", "Milli vəhdət fəlsəfəsi...", "Antimaterializm" kimi məşhur əsərləri, həmçinin müxtəlif ölkələrdə oxuduğu mühazirələr və ayrı-ayrı şəxslərə yazdığı məktublar onu bütün dünyada məşhurlaşdırmış, onun ideyalarını daşıyan və yaşadan, təbliğ edən çoxsaylı ardıcıllarının meydana çıxmasına səbəb olmuş, əslində müsəlman xalqlarında milli şüurun güclənməsinə çox böyük təsir göstərmişdir. XX əsrin Azərbaycan ziyalıları, ilk növbədə M.Ə.Rəsulzadə etiraf edirdilər ki, "müsəlman aləmində azadlıq üçün milli şüurun oyanmasının zəruriliyini ilk dəfə Cəmaləddin Əfqani göstərmişdir" (2, s. 17). Əfqani milli şüuru oyatmaq üçün iki mühüm amili qeyd edirdi: din birliyi və dil birliyi.

Cəmaləddin Əfqaninin ideyaları onun ölümündən sonra – XX əsrin əvvəllərində daha geniş yayılmışdı, hətta sonralar bir çox Şərq ölkələrində - Azərbaycanda, Türkiyədə, İranda, ərəb ölkələrində genişlənən milli hərəkatların ideoloji əsasında Əfqaninin inqilabi təfəkkürü və onun fəlsəfəsi dururdu. Onun ideyaları "Milliləşmə, islamlaşma, müasirləşmə" tezisi şəklində ümumiləşdirilmişdi və həmin tezisin həyata keçirilməsi sonralar türk dünyasının böyük şəxsiyyətlərinin fəaliyyətinin əsasını təşkil etmişdi. Bunların sırasında türk-müsəlman dünyasının görkəmli ideoloqları İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Ziya Göyalp, Əhməd bəy Ağaoğlu, Məmməd Əmin Rəsulzadə, Nəcəf bəy Vəzirov, Üzeyir bəy və Ceyhun bəy Hacıbəylilər və b. vardı.

Əfqaninin "Milliləşmə, islamlaşma, müasirləşmə" tezisi sonralar Əli bəy Hüseynzadə tərəfindən irəli sürülən "Türkləşmək, müasirləşmək, islamlaşmaq" şüarında daha da inkişaf etdirilmiş, bu şüar 1911-ci ildə yaradılmış "Müsavat" partiyasının fəaliyyət proqramına çevrilərək, ilk dəfə Azərbaycan Xalq Cumhuriyyəti dövründə (1918-1920) qaldırılan və 1991-ci ildən sonra müstəqil, demokratik Azərbaycanın simvoluna çevrilmiş üç rəngli bayrağımızda öz təcəssümünü tapmışdır.

AXC banilərindən biri M.Ə.Rəsulzadə hələ 1910-cu ilin ortalarında öz ictimai-siyasi fəaliyyətində Əfqaninin ideya-siyasi irsindən bəhrələnmişdi. M.Ə.Rəsulzadə 1914-cü ildən nəşr olunan "Dirilik" jurnalındakı silsilə məqalələrində milli özünüdərk, din, milli birlik, dil, tarixi keçmişə münasibət və müasirlik kimi problemlərin işıqlandırılmasında Əfqaninin ictimai-fəlsəfi baxışlarına söykənmiş və onları daha da inkişaf etdirmişdi (5, s. 328).

Türkçülüyün tanınmış ideoloqu və nəzəriyyəçisi Ziya Göyalp özünün məşhur "Türkçülüyün əsasları" əsərində belə bir məlumat verir: "Əbdülhəmidin (türk sultanı II Əbdülhəmid 1876 – 1909- cu illərdə hakimiyyətdə olmuşdur – S.Ə.) son illərində İstanbulda türkçülük axımı təkrar canlanmağa başladı.

Rusiyadan köçüb gələn Hüseynzadə Əli bəy Tibbiyədə (tibb məktəbində) türkçülüyün əsaslarını başa salırdı. "Turan" adlı şeiri "Turançılıq" ülgüsünün – ideyasının ilk ortaya qoyuluşu idi. Yunan savaşı başladığı zaman türk şairi Mehmed Emin bəy: "Mən bir türkəm, dinim, cinsim uludur" – misrası ilə başlanan ilk şerini nəşr etdi. Bu iki şer türk həyatında yeni bir devrimin – inqilabın başlayacağını xəbər verirdi. Hüseynzadə Əli bəy Rusiyadakı millətçilik axımlarının – cərəyanlarının təsiri ilə türkçü olmuşdu.

... Türk şairi Mehmet Emin bəyə türkçülüyü aşılayan – özünün söylədiyinə görə, - Şeyx Cəmaləddin Əfqanidir. Misirdə Şeyx Məhəmməd Əbduhu, qüzey-şimal türkləri arasında Fəxrəddin oğlu Ziyaəddini yetişdirən bu böyük islam devrimçisi – inqilabçısı

Türkiyədə Mehmet Emin bəyi tapıb xalq dilində və heca vəznində millət sevgisiylə dolu şeirlər yazmasını tövsiyə etmişdi" (3,s. 28).

Şeyx Cəmaləddin Əfqani ideyalarının təsirinə daha çox məruz qalan, bu ideyaları yaşadan və onların gerçəkləşməsi uğrunda bütün həyatı boyu mübarizə aparan Əhməd bəy Ağaoğlu olmuşdur.

Məlumdur ki, orta təhsilini Şuşadakı rus məktəbində və Tiflis gimnaziyasında alan Ağaoğlu, 1888-ci ildə ali təhsil almaq üçün Fransaya getmiş, burada Paris hüquq məktəbinə və Corbonna universitetinə daxil olmuşdu. Təhsil illərində islam dini, onun siyasi, ideoloji, fəlsəfi, mənəvi, əxlaqi, etik, iqtisadi və hüquqi cəhətlərini dərindən öyrənmişdi. Burada o, Şeyx Cəmaləddin Əfqani ilə tanış olur. Əhməd bəy bu barədə tam saxlanılmamış və əlimisdə yalnız müəyyən parçaları olan çap edilməmiş xatirələrində yazır: "İslam aləminin mütəfəkkirlərindən Cəmaləddin Əfqani Parisdə olarkən mənim sadə evimi başqalarının zəngin saraylarından üstün tutmuşdu və həftələrlə bir yerdə qalmışdıq" (1, s.240; 6, s. 172). Əhməd bəyin etirafına görə, o, Cəmaləddinin Fransa alimləri və filosofları ilə görüşlərinin, mübahisələrinin çoxunda iştirak etmiş, bunlardan özü üçün, xüsusilə din, dil və mədəniyyət məsələlərində çox şey əxz etmişdi (6, s. 172; 2, s. 17; 7, s. 20).

Yeri gəlmişkən qeyd edək ki, bəzi türk tədqiqatçıları Əhməd bəyin Fransada Əfqani ilə tanışlığı barədə verdiyi məlumata şübhə ilə yanaşırlar. Ufuk Özcanın 2002-ci ildə İstanbulda nəşr olunmuş "Ahmet Ağaoğlu ve rol degişikligi" adlı əsərində oxuyuruq: "Otobioqrafik notlarında Ağaoğlu Cemaleddin Afqaniyle de tanışdığını, kendisiyle uzun görüşmeler yapdıqını yazmaqdadır. Ancaq onun Pariste yaşadığı dönemde Afqaninin Fransa dışında bulunduğu, dolayısıyla karşılaşmalarının mümkün olamayacağı gerekçesiyle Niyazi Berkeş, Ağaoğlunun bu iddiasını yalanlamaqdadır" (8, s. 37; 9, s. 607).

Ufuk Özcan Niyazi Berkeşin bu fikri ilə əlaqədar yazır ki, Əhməd bəyin və Əfqaninin Fransada görüşüb-görüşməməyi bir o qədər də əhəmiyyətli deyil, ən əhəmiyyətlisi odur ki, Əfqaninin baxışları Ağaoğluna ciddi təsir göstərmişdir və Əhməd bəy Əfqaninin kişiliyini və bəzi görüşlərini nədən həmişə önə çıxarmışdır. Bunun ardınca müəllif həm Əfqaninin, həm də Əhməd bəyin baxışlarındakı ortaq cəhətləri qeyd edir və yazır ki, onların ikisini də İranın yaxın gələcəyi narahat edirdi (8, s. 37 – 38).

Əhməd bəy Ağaoğlunun əsərləri içərisində Cəmaləddin Əfqani haqqında daha geniş məlumatlara 1934-cü ildə Ankarada "1500 ilə 1900 arasında İran" adı altında nəşr olunmuş əsərdə rast gəlirik. Kitabın ikinci nəşrini 1939-cu ildə Əhməd bəyin vəfatından sonra onun oğlu Səməd Ağaoğlu hazırlamış və 1941-ci ildə "Ağaoğlu külliyyatı"nda çap etdirmişdir. Kitabın əvvəlində tərtibçi tərəfindən belə bir epiqraf verilmişdir: "Atam sağ olsaydı, bu əsərini Ömər Naci başda olmaqla İran inqilabı uğrunda çalışmış və can vermiş türklərə ithaf edərdi, - deyə düşündüm və buna onun adından mən cəsarət etdim. Səməd Ağaoğlu" (10, s. 363-364).

Kitab iki hissədən ibarətdir. 75-ci səhifədən sonra "İran inqilabı" adlanan hissə başlayır. Bu hissə aşağıdakı bölmələrdən ibarətdir: Müzəffərəddin şah (1896-1907). İnqilabın səbəbləri. İnqilabdan əvvəl İranın idari və maliyyə vəziyyəti. Ədliyyə müəssisələri. Ordu. Ticarət və maliyyə. Nəsrəddin şah zamanındakı islahat və ümumi əhval. İnqilabın mənəvi amilləri. İnqilabın tarixçəsi. Məhəmmədəli şah (1907-1909). Əhməd şah (1909- 1925).

Əsərin sonunda müəllifin fars, ingilis, fransız və rus dillərində istifadə etdiyi mənbələrin siyahısı verilmişdir.

Şeyx Cəmaləddin haqqında olan məlumatlar "İnqilabın mənəvi amilləri" adlanan bölmədədir. Əhməd bəy 1905-1911-ci illərdə baş vermiş və tarixə "Məşrutə (konstitu-

siya) inqilabı" adı altında daxil olmuş İran inqilabının ən mühüm mənəvi amillərindən bəhs edərək yazır: "Zülm və cəbr belə istiqbal üçün birər amillər olmuşlardı: məmləkətin daxilində can və mallarından əmin olmayan iranlılar mühacirətə başlamışdılar. Mühacirət üç istiqamətdə getməkdə idi: Hindistana, Qafqaziyaya və Türkiyəyə doğru. Hər il minlərlə iranlılar yerlərini, yurdlarını tərk edir və qonşu irqdaşlarının ölkələrinə gedirdilər. Onlar buralarda yerləşir, illərlə yaşayır və adətən oralardakı fikri və hissi cərəyanlardan bəhrələnirdi.

Bu baxımdan İstanbulun İran üzərindəki təsiri xüsusi qeyd olunmağa layiqdir (10, s. 137).

Əhməd bəy qeyd edir ki, hələ inqilabdan çox-çox əvvəl İranda ən artıq oxunan ciddi qəzet "Əxtər" İstanbulda təsis edilmişdi, illər boyu burada çap olunub yayılaraq İranın əfkarınım işıqlanmasına səbəb olurdu (10, s. 137).

Qeyd etmək yerinə düşər ki, bu qəzet Cəmaləddin Əfqaninin təsiri altında olan İran siyasi mühacirləri və inqilabçıları tərəfindən 1875-ci ildən etibarən fars dilində nəşr olunurdu. "Əxtər" İrandakı mövcud siyasi quruluşu tənqid edir, Avropa dövlətlərinin müstəmləkəçilik siyasətini ifşa edirdi ( 11, s. 30).

Əhməd bəyin yazdığına görə, "İran inqilabını doğrudan-doğruya hazirlayan inqilabçılar da İstanbulda toplanmışlardı.Onlardan məşhur Cəmaləddin Əfqani ilə Mirzə Ağaxan, Hacı Mirzə Həsən xan, Həbirül-mülk və Şeyx Əhməd adları çəkilməyə layiqdir". Müəllif sözünə davam edərək yazır: "Bunların rəisi olan Seyid Cəmaləddin Əfqaniyə gəlincə, bu zat başqa bizimdə bir adamdı. Onun üzərində bir az təfsilatı ilə durmaq faydasız deyildir.

Ona tələbə ikən Parisdə təsadüf etmişdim. İri gözləri, gözəl qarayanız siması və zadəganlara xas olan görünüşü ilk baxışdan belə adama hörmət təlqin edirdi. İslam alimlərinə və fəlsəfəsinə bələdliyi o dərəcədə yüksək idi və zəkası o qədər kəskin idi ki, məşhur E.Renan onun haqqında deyirdi: "Onunla görüşəndə İbn Rüşdü xatırlayıram" (10, s. 137).

Əhməd bəyin adını çəkdiyi Ernest Renan Sorbonnada onun müəllimi olmuş fransız filosofu və şərqşünasıdır. Dinlərin, o cümlədən islamın tarixini dərindən bilirdi. Əhməd bəyin Parisin elmi-mədəni mühitinə qatılmasında xüsusi xidməti olmuşdu. Əhməd bəy ömrünün sonunadək Renanı dərin minnətdarlıq hissi ilə yad edirdi.

E.Renanın Cəmaləddin Əfqanini bənzətdiyi İbn Rüştə gəlincə, o XII əsrdə yaşayıb yaratmış ərəb filosofudur. Ərəb aristotelizminin parlaq nümayəndələrindən biridir. Avropada Averroes adı ilə tanınmışdır. Bir çox orijinal əsərlərin və şərhlərin müəllifidir. Bunların içərisində fəlsəfəyə və dinə dair əsərlər üstünlük təşkil edir. O, həmçinin Aristotelin əsərlərinə şərhlər yazmış və bununla daha çox məşhurlaşmışdı (12, s. 167-177). Yəni E.Renan Cəmaləddin Əfqanini Əbn Rüştə təsadüfən bənzətmirdi, onu məhz böyük islam bilicisi olduğu üçün belə dəyərləndirmişdi.

Əhməd bəy Cəmaləddin Əfqani haqqında fikrini davam etdirərək yazırdı: "Təbiəti etibarilə dərbədərdi. 1870-ci illə 1897-ci il arası onu mütəmadiyyən Əfqanıstanla Hindistan, İran, Türkiyə, Misir, Paris, London və Peterburq arasında dolaşan görürük. 1890-cı ildə Əfqanıstanda baş nazir ikən oranı tərk etmək məcburiyyətində qalır, Hindistana gedir, oradan ingilislər tərəfindən çıxarılır, Misirə, oradan da İstanbula gəlir, burada Ali Paşa tərəfindən hörmət-izzətlə qarşılanır" (10, s. 138).

Əhməd bəyin məlumatına görə, Əfqani İstanbulda olarkən Universitetdəki görüşü zamanı şəriətlə fəlsəfə arasında apardığı bir müqayisəyə görə şeyxülislam tərəfindən mülhidlikdə ittiham edilmiş və İstanbulu tərk etmək məcburiyyətində qalaraq yenidən Hindistana getmişdi. Hindistanda olarkən "Rəddi-Maddiyyun ("Antimaterializm") adlı məşhur əsərini yazmışdı.

1884-cü ildə Parisə gələn Əfqani bir tərəfdən məşhur misirli Şeyx Əbdo ilə bərabər "Ürvətül-Vüsqa" adlı məcmuəsini çıxarmağa başlayır və digər tərəfdən də Renan ilə islam mədəniyyəti ətrafında mübahisəyə girişir ( 10, s. 138).

Ə.Ağaoğlu yazır ki, ingilislər "Ürvətül-Vüsqa"nın Hindistana gətirilməsini qadağan edirlər və məcmuənin nəşri dayandırılır. Cəmaləddin Əfqani Londona gedir, baş nazir Solsberi o zaman Sudanda fəaliyyətə başlamış olan Mehdi haqqında Cəmaləddinin fikrini soruşur. Bundan sonra Əfqani Peterburqa yollanır və orada səyahətə çıxmış olan İran şahı Nəsrəddinlə görüşür. Şah həm Peterburqda, həm də bir az sonra Münixdə israrla onu Tehrana dəvət edir. Dostlarının xəbərdarlığına baxmayaraq, Əfqani bu dəvəti qəbul edir və Tehrana gedir. Lakin burada şahın xəyanətini başa düşüb, Əbdüləzim məbədinə daxil olur. Məbəddə onun başına çoxlu adamlar toplaşır, məbəd dini və siyasi bir qaynaşma ocağı halını alır. Üləmanın tələbi ilə şah Cəmaləddini zorla məbəddən çıxarır və onu 700 atlı ilə Türkiyə sərhəddinə göndərir. Əhməd bəy yazır ki, bu hadisə 1890-cı ildə baş vermişdi. Bundan sonra Əfqani Londona getmiş və burada Nəsrəddinə qarşı fəaliyyətə başlamış Melkum xanla birləşmişdi.

Əhməd bəy Melkum haqqında da məlumat verir və yazır ki, Melkum əslən erməni idi və iyirmi ildən çox İranın Londondakı səfiri idi. O, islahat tərəfdarı olduğundan şaha müxtəlif islahat layihələri təqdim edirdi və bu layihələrdə xüsusilə əcnəbilərə verilən imtiyazların zərərli olacağı bildirilirdi. Bu zəmində onun şahla arası dəyir və Melkum səfirlikdən çıxıb, Londonda "Qanun" adında məcmuə nəşr etdirir (10, s. 138).

Əhməd bəyin yazdığına görə Cəmaləddin Əfqani 1892-ci ildə İstanbula gəlmiş və sultan II Əbdülhəmid özü onu qarşılamış, Nişandaşı yaxınlığında onun üçün bir imarət ayırmışdı. Lakin 1896-cı ildə İran şahı Nəsrəddinin qətli ilə əlaqədar İran hökuməti Əfqanini Türkiyədən tələb etmiş, sultan Əbdülhəmid Cəmaləddinin arkadaşlarını verdiyi halda, onu verməkdən çəkinmişdi. Ertəsi il Əfqaninin birdən-birə vəfatı Əbdülhəmid əleyhinə bir çox dedi-qoduların yaranmasına səbəb olmuşdu (10, s. 139).

Əhməd bəy Cəmaləddin Əfqanini daha çox "Seyid" adlandırır və onun haqqında fikirlərini yekunlaşdıraraq yazır: "Bu qədər dolğun bir fəaliyyət dövrü keçirmiş olan Seyidin kəskin zəkası, dərin bilikləri, ötkün qələmi və sözü yalnız İran deyil, hətta bütün islam aləmi üzərində təsirsiz qalmamışdır. Seyid fars, ərəb, türk dillərini mükəmməl bildiyi kimi, fransızca və ingiliscəni də oxuyub anlayacaq qədər öyrənmişdi. İslam və Qərb mədəniyyətlərini ruhuna hülul etmiş və qayəsi mədəniyyətləri barışdırmaq və bir-biri ilə əlaqələndirmək, islam dünyasında bir islahat dövrü açmaqdı. Lakin tənqidləri xüsusilə İran üsuli-idarəsinə qarşı çevrilmişdi və bu mövzuya aid yazdığı yazılar həqiqətən məhvedici idi. Məsələn, İran və İraq müctəhidlərinə xitabən yazdığı bir məktubda üsuli-idarənin halını böylə təsvir edir: "Hökumət ilahi və mədəni qaydaları aradan qaldırmış, ağıl və məntiq xaricinə çıxmışdır. Ehtiras hər şeyə hakimdir. Qüvvə və təcavüz yeganə amildir, dəmir və atəş isə bu amilin vasitələridir. Şah qan tökməkdən zövq alır. Namusa təcavüz onun əyləncəsi olmuşdur. Dulların və yetimlərin mallarını qəsb etmək onun üçün bir oyun halına gəlmişdir. Məmləkətdə əmniyyət qalmamışdır. Əhali can və mallarını mühafizə etmək üçün başqa məmləkətlərə pənah aparmağa məcburdur. Hakimlər və valilər iltizam təriqi ilə vəzifə almaq üçün verdikləri pulları artıqlaması ilə xalqdan geri almaqdan ötrü əl atmadıqları haqsızlıq və zülm yoxdur. Qadınları saçlarından asdırmaq, kişiləri vəhşi köpəklərə yedirtmək, burunlarını dələrək halqalar taxmaq və küçəbəküçə gəzdirmək – pul qopartmaq üçün əl atılan vasitələr, bax, belə idi!" (10, s. 139).

Cəmaləddinin məktubundan gətirdiyi bu parçadan sonra Əhməd bəy yazırdı ki, "zənn edilməsin ki, Seyid bunları uydurur, xeyr! Onun təsvir etdiyi lövhə o zamankı İran həyatının az bir hissəsidir" (10. s. 139).

Ə.Ağaoğlu "İran inqilabı" əsərindən çox-çox əvvəl yazdığı əsərlərdə və məqalələrdə də Cəmaləddin Əfqanidən bəhs etmiş, onun müsəlman dünyası qarşısındakı xidmətlərini dəyərləndirmişdir. Məsələn, 1903-1904-cü illərdə "Kaspi" qəzetində dərc olunan "Müsəlman xalqlarının vəziyyəti" adlanan silsilə məqalələrində XIX əsrin sonu – XX əsrin əvvəllərində islam dininin və müsəlman dövlətlərinin düşdüyü acınacaqlı vəziyyətdən bəhs edərkən Şeyx Cəmaləddin Əfqanini ürək ağrısı ilə yad edib yazırdı: "İstedad və nüfuzuna görə zəmanəmizin görkəmli şəxsiyyətlərindən biri, Parisdə çıxan "Ürvətül-vüsqa" qəzetinin keçmiş naşiri və redaktoru Seyid Cəmaləddinin islamın müasir vəziyyətinə verdiyi dəqiq qiymət heç zaman yadımdan çıxmır. Seyid Cəmaləddin deyirdi ki, "mən islamı nəhəng bir vücud kimi təsəvvür edirəm. O başını İstanbulda yerə qoyub, qollarının birini Afrikanın şimalına, o birini Krım və Orenburq üzərindən Çinə uzadıbdır, ayaqları isə bütün Qərbi Asiya boyunca dolaşır. Artıq bu vücudda nə bir sağlam yer və nə də bir xəsarət almamış orqan var. Amma o, qanı axa-axa, yarımcan halda yenə öz dəmir püskürən nəfəsini bilirsiniz nəyə sərf edir? Sadəcə kimin haqlı, kimin haqsız olduğu ilə bağlı höcətləşmələrə! əmrmi, Zeydmi haqlıdır? Əmrinmi, yoxsa Zeydinmi ilahiyyatı yaxşıdır? Yalnız son nəfəs də canından çıxandan sonra başa düşəcək ki, məhz bu höcət nəticəsində öldü" (13, 14 noyabr, 1903-cü il).

Yuxarıda deyilənlər bir daha sübut edir ki, Cəmaləddin Əfqaninin baxışları Əhməd bəyə çox güclü təsir göstərmişdir.Hətta bəzi tədqiqatçılar Əhməd bəyin 1906-cı ildə Qafqazın müsəlman əhalisinə qarşı erməni terrorizminə və çar hakimiyyəti orqanlarının bu məsələyə laqeyd münasibətinə cavab kimi yaratdığı və öz proqramında Azərbaycan xalqının düşmənlərinə qarşı terrorçuluğu nəzərdə tutan "Difai" partiyasının da Cəmaləddin Əfqaninin "Zalımı öldürmək gərəkdir, qansız məqsədə yetmək olmaz" tezisinin təsiri ilə yarandığını qeyd edirlər ( 6, s. 172; 14, s. 153-154).

Beləliklə, Əhməd bəy Ağaoğlunun əsərlərində Cəmaləddin Əfqani haqqında verilmiş məlumatlar, bir tərəfdən Əfqaninin həyat və fəaliyyətini, onun ayrı-ayrı mərhələlərini daha dərindən öyrənməyə imkan verir, digər tərəfdən isə onun ictimai-siyasi baxışlarının Əhməd bəyə göstərdiyi təsiri özündə əks etdirir. Odur ki, bu zəngin irsin öyrənilməsi böyük maraq doğurur.

## *ƏDƏBİYYAT*

1. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası, I cild, Bakı, 2004.
2. Əhməd bəy Ağaoğlu. Seçilmiş əsərləri. Bakı, 2007.
3. Əhməd bəy Ağaoğlunun 125 illiyi (Elmi konfransdakı məruzələrin tezisləri). Bakı, 1995.
4. Gwlszrzn Akalsn. Türk düşüncə və siyasi həyatında Əhməd bəy Ağaoğlu. Bakı, 2004.
5. "Kaspi" qəzeti, 14 noyabr 1903.
6. Quliyev V. Tatixdə iz qoyan şəxsiyyətlər. Bakı, 2000.
7. Məmmədli P. Cənubi Azərbaycan mətbuatı. Bakı, 2009.
8. Niyazi Berkeş. Türkiyede Çağdaşlaşma. İstanbul, 1978.
9. Səidə Əli qızı. Görkəmli islamşünas alim Əhməd bəy Ağaoğlu. "Dövlət və din" ictimai fikir toplusu. Mart 2008, № 1 (5).
10. Şərq fəlsəfəsi. Bakı, 1999.
11. "Tarix və onun problemləri", Bakı, 2000, № 1.
12. Ufuk Özcan. Ahmet Ağaoğlu ve rol degişikligi. Yuzyıl dönümünde batıcı bir aydın. İstanbul, 2002.
13. Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, 1991.

САИДА АЛИ КЫЗЫ

**ИСЛАМСКИЕ МЫСЛИТЕЛИ ВОСТОКА - АХМЕД БЕКА АГАОГЛЫ И ШЕЙХА ДЖЕМАЛЕДДИНА АФГАНИ**

Новая история стран Востока вырастила замечательных мыслителей ислама, среди которых особо следует отметить Ахмед бека Агаоглы и Шейха Джемаледдина Афгани.

В статье исследуются общественно-политические, философские и исламские воззрения этих мыслителей, а также вопросы влияния взглядов Дж.Афгани на формирование Ахмед бека Агаоглы как известного ученого-исламоведа.

SAIDA ALI QIZI

**THE THINKERS OF ISLAM OF THE EAST - AKHMED BEK AGAOGLY AND SHEIKH JEMALEDDIN OF AFGHANI**

The modern history of the countries of the East has grown up remarkable thinkers of Islam among whom especially it is necessary to note Akhmed bek Agaogly and Sheikh Jemaleddin of Afghani.

In article political, philosophical and Islamic views of these thinkers, and also questions of influence of sights of J are investigated. Afghani on formation Akhmed bek Agaogly as known scientist-islam.

***Rəyçilər: t.e.d.Ə.İ.Muxtarova, t.e.d.A.M.Məmmədov.***

***BDU-nun «Mənbəşünaslıq, tarixşünaslıq və metodika» kafedrasının 31 may 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №09).***